# ADA Universitetində Milli Diplomatiya Günü qeyd olunub






İyulun 12-də ADA Universitetində Milli Diplomatiya Gününə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə rəsmi şəxslər, Bakıda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, Milli Məclisin deputatları iştirak ediblər.

Universitetin rektoru professor Hafiz Paşayev Azərbaycan diplomatiyasına həsr olunmuş mərasimə qatıldıqları üçün tədbir iştirakçılarına minnətdarlığını bildirib. Qeyd edilib ki, 97 yaşı olan Azərbaycan diplomatiyası mürəkkəb, eyni zamanda, şərəfli yol keçib. Müasir diplomatiyamızın formalaşması təbii ki, müstəqilliyimizin bərpası ilə bağlıdır. Azərbaycanın çağdaş diplomatiyasının inkişafını hamımız müşahidə etmişik. Son illərin mənzərəsinə nəzər saldıqda bu istiqamətdə yaşanan çətinlikləri, eyni zamanda, qazanılan uğurları və böyük potensiala malik diplomatların yetişdiyini görmək olar. O deyib: “Əlimərdan bəy Topçubaşovu diplomatiyamızın əsasını qoyan şəxs kimi qəbul edirik. Lakin müasir diplomatiyamızın bir nömrəli diplomatı ulu öndər Heydər Əliyevdir. Müstəqilliyimizin ilk illərində ölkədəki mürəkkəb siyasi şəraitdə diplomatiyamızın formalaşması, bu sahənin siyasi fəaliyyətin həyata keçirilməsinə uyğunlaşdırılması baxımından Heydər Əliyev məktəbi böyük əhəmiyyətə malikdir. Ulu öndər ilə hər görüşümüz bizə yeni diplomatiya dərsi kimi faydalı olurdu”.

ADA Universitetinin yaranmasından və fəaliyyətindən danışan rektor diqqətə çatdırıb ki, rəhbərlik etdiyi bu ali təhsil ocağı artıq qarşıya qoyulan məqsədə çatıb. “Fəxrlə deyə bilərəm ki, dövlət başçısı diplomatiyamızın uğurlarından danışarkən bizim də fəaliyyətimizi yüksək qiymətləndirir. ADA Universitetinin uğurlarından bəhs edərkən məzunlarımızın təkcə Xarici İşlər Nazirliyində deyil, digər dövlət qurumlarında, özəl şirkətlərdə də müvəffəqiyyətlə fəaliyyət göstərdiklərini xüsusi vurğulamaq lazımdır”, - deyə Hafiz Paşayev bildirib.

Sonra Əlimərdan bəy Topçubaşovun 150 illik yubileyi ilə əlaqədar bu ali təhsil ocağı tərəfindən hazırlanmış “İstiqlal təşnəsi” sənədli filminin təqdimatı olub.

Tədbirdə ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə “Azərbaycan diplomatiyasının dünəni, bugünü, sabahı” mövzusunda müzakirələr aparılıb. Müzakirələr zamanı diplomatiyamızın tarixindən, uğurlarından, əsas inkişaf istiqamətlərindən bəhs edilib, çağdaş diplomatiyanın tələblərinə uyğun yeni kadrların formalaşmasının önəmi vurğulanıb.

Milli Məclisin deputatları Asim Mollazadə, Qənirə Paşayeva və Musa Qasımlı tədbirdə çıxış edərək diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə təbriklərini çatdırıblar. Onlar yeni nəsil peşəkar diplomatların yetişdirilməsində ADA Universitetinin fəaliyyətini yüksək qiymətləndiriblər.

Natiqlər “İstiqlal təşnəsi” sənədli filminin televiziya kanallarında vaxtaşırı yayımlanmasının və bu ekran əsərinin xarici ölkələrdə də nümayiş etdirilməsinin vacibliyini vurğulayıblar.

Sonda universitetin yeni nəşrləri təqdim edilib.